10.61764/lasr.1.2023.167-178

**UOT 33.338.48**

**Əsgər Əliyev**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dosent*
*aliyevasgar1949@gmail.com*

**İashar Gasimovi**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*
*qasimovyasar06@gmail.com*

# AZƏRBAYCANIN MODERN DÖVLƏT QURUCULUĞUNDA TURİZMİN YERİ

*Məqalədə Azərbaycanın modern dövlət quruculuğunda turizmin yeri və əhəmiyyəti araşdırılır. Azərbaycanın zəngin və çoxşaxəli turizm imkanları, dövlət proqramları və beynəlxalq əməkdaşlığı ilə ölkənin sosial-iqtisadi inkişafına necə töhfə verdiyi təhlil edilir. Məqalədə həmçinin ölkənin turizm sahəsində üzləşdiyi problemlər və onların aradan qaldırılması üçün görüləcək tədbirlərdən bəhs edilir.*

*Azərbaycan turizm sektorunun inkişafı üçün dövlət proqramları və beynəlxalq əməkdaşlıq həyata keçirir. Bununla da ölkə turizmin sosial-iqtisadi inkişafa töhfəsini artırır və müasir dövlət strukturunda turizmi strateji sahə kimi yerləşdirir. Məqalədə həmçinin ölkənin turizm sahəsində üzləşdiyi problemlər və onların aradan qaldırılması üçün görüləcək tədbirlərdən bəhs edilir. Məqalədə Azərbaycanın turizm potensialını və müasir dövlət quruculuğunda turizmin rolunu təhlil etmək və bu sahədə təkliflər verilmişdir.*

***Məqsəd:*** Azərbaycanın turizm potensialını və turizmin ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələri tanıtmaq, turizm növlərini və onların xüsusiyyətlərini, üstünlüklərini və çətinliklərini təhlil etmək, turizm sektorunda əldə olunan nailiyyətləri və çatışmazlıqları ümumiləşdirmək və turizmin müasir dövlət strukturuna necə daha yaxşı inteqrasiya və inkişaf etdirilməsi ilə bağlı təkliflər vermək.

***Metodologiya:*** Bu məqalədə keyfiyyət tədqiqat metodlarından biri olan təsviri təhlil metodundan istifadə olunur. Təsviri təhlil metodu bir mövzu və ya hadisəni olduğu kimi təsvir etmək və şərh etmək məqsədi daşıyan bir üsuldur. Bundan əlavə, Azərbaycanın müasir dövlət strukturunda turizmin yeri və əhəmiyyətini araşdırmaq üçün təsviri təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi:*** Məqalədə Azərbaycanın turizm potensialı, turizmin növləri, turizm sektorundakı nailiyyətlər və çatışmazlıqlar, müasir dövlət strukturunda turizmin rolu və turizmin inkişafı ilə bağlı təkliflər təqdim olunur.

Məqalədə aşağıdakı nəticələr əldə edilmişdir:

- Azərbaycanın toxunulmamış təbiəti, mineral su ehtiyatları, naftalan, nadir qədim memarlıq abidələri, unikal mədəniyyəti və milli mətbəxi kimi bir çox amillərlə turizm sektorunda böyük potensialı var.
- Azərbaycanda turizmin bütün növlərinin – biznes, idman, müalicə, tanışlıq, ovçuluq, ekzotik, çimərlik və qastronomik turizmin inkişafı üçün əlverişli şərait təklif olunur.
- Azərbaycanda turizm sektorunun inkişafı üçün dövlət proqramları və beynəlxalq

əməkdaşlıq da həyata keçirilir. Bununla da ölkə turizmin sosial-iqtisadi inkişafa töhfəsini artırır və müasir dövlət strukturunda turizmi strateji sahə kimi yerləşdirir.

- Azərbaycan turizm sektorunda uğur qazansa da, müəyyən çətinliklərlə də üzləşir. Bunlara infrastrukturun olmaması, ixtisaslı insan resurslarının çatışmazlığı, tanıtım tədbirlərinin qeyri-adekvatlığı, aşağı rəqabət qabiliyyəti və ekoloji problemlər daxildir.
- Azərbaycanın turizm sektorunun daha da inkişaf etdirilməsi üçün aşağıdakı təkliflər irəli sürülə bilər: İnfrastruktur investisiyalarının artırılması, turizm təhsilinin təkmilləşdirilməsi, tanıtım tədbirlərinin şaxələndirilməsi və aktivləşdirilməsi, rəqabət qabiliyyətinin artırılması üçün innovativ və keyfiyyətli xidmətlərin göstərilməsi, ekoloji davamlılıq prinsipinə uyğun fəaliyyət göstərmək.

***Açar sözlər:*** *Azərbaycan, turizm, modern dövlət quruculuğu, təsviri təhlil, təkliflər*

**Giriş**

Qloballaşan dünyada turizmin strateji əhəmiyyətli sahə kimi nəzərdən keçirilməsi onun təkcə mənfəətli iqtisadi fəaliyyət növü olması ilə şərtlənmir. Müasir dövrdə turizmin inkişafı həm də təbliğatı-siyasi mahiyyət daşımaqla hər bir dövlətin beynəlxalq arenaya çıxışını sürətləndirmək, coğrafi resurslarını, mövcud imkanlarını, mədəniyyətini təbliğ etmək, tanıtmaq vasitəsinə çevrilmişdir.

Müasir zamanda iqtisadiyyatın ən gəlirli sahəsinə çevrilmiş turizm qədim tarixi köklərə malikdir. Çünki insan övladı bütün zamanlarda səyahətlər etmişdir. Ona görə hər bir tarixi mərhələdə turizm kateqoriyasına aid edilə bilən insan fəaliyyəti elementlərinə rast gəlmək mümkündür. Orta əsrlərdə mövcud olmuş karvan yolları, karvansaralar hər biri özündə səyahət elementlərini birləşdirirdi. Böyük coğrafi kəşflər dövründə məcara həvəskarları, demək olar ki, dünyanın bütün limanlarından yelkənlərlə dənizə çıxırdılar. Bu gün dünyada elə bir xalq və mədəniyyət tapmaq mümkün deyil ki, onun tarixində səyahətlər əks olunmasın. Hər bir xalqın folklorunda bu və ya digər səyahətçilər barədə əfsanə və rəvayətlərə rast gəlmək mümkündür. Buna əsaslanaraq söyləmək olar ki, turizm həm qədim lokal sivilizasiyaları, eləcə də bütövlükdə dünya sivilizasiyasının təşəkkülü və inkişafında çox böyük rol oynamışdır. Bu mənada turizm və səyahətlərin tarixi mədəniyyət tarixinin bir hissəsidir.

Yerindən, məqsədindən, müddətindən asılı olaraq turizmin bir çox növləri var. Məsələn, rekreasiya turizmi istirahətlə həyata keçirilən səyahətdir. Turizmin bu növü bütün dünyada geniş yayılmışdır. Belə səfərlərin xarakterik xüsusiyyəti onun müddətinin böyük olmasıdır. Müalicə turizmi fərdi səyahət növüdür. Belə turların davamiyyət müddəti adətən digər turizm növlərindən çox olur (Sanatoriyalara gəliş turizmə şamil edilmir. Çünki sanatoriyalar xəstəxanaların bir növüdür). İstirahət etmək, əylənmək, idmanla məşğul olmaq məqsədilə istirahət günlərində hər hansı bir yerə hərəkət etmək "həftəsonu turizm" adlanır. Elmi və konqres turizmi müxtəlif simpoziumlarda, yığıncaqlarda iştirak etmək məqsədi daşıyan səyahətləri özündə birləşdirir. Turizmin bu növü müasir beynəlxalq turizmdə böyük yer tutur. Belə ki, beynəlxalq tədbirlərdə iştirak edənlər xarici turistlərin ümumi sayının 6-7 faizini təşkil edir. Burada adambaşına düşən gəlir göstəriciləri daha yüksəkdir. İşgüzar turizm isə işgüzar məqsədlə edilən səfərdir və müasir turist mübadiləsinin mühüm tərkib hissəsidir. Bu cür səyahətlər ən perspektivli turizm növlərindən biri hesab edilir [1, s.34].

- Etnik və ya nostalji turizmi beynəlxalq turizmdə əhəmiyyətli yer tutan, qohumlarla görüşmək və ya valideynlərin anadan olduqları ata-baba yurduna

səyahət etməklə bağlı olan turizm növüdür.

- Macəra turizmi fiziki cəhətdən ağır, çox vaxt isə həyat üçün təhlükəli olan turizm növüdür. Belə turların təşkili zamanı "macəralar komplekti" çox vaxt öncədən xüsusi olaraq hazırlanmaqla yanaşı, eyni zamanda turistlərin təhlükəsizliyi üçün bütün mümkün vasitə və imkanlardan istifadə olunur.
- Kənd turizmi turistlərin kənd yerlərinə müvəqqəti səfəridir.
- Ekoturizm təbiət turizminin xüsusi forması kimi ətraf mühitə qayğı ilə bağlı turizmdir.
- Dini turizm hər hansı bir dini mərasimin, missiyanın, ibadətin yerinə yetirilməsi məqsədilə həyata keçirilən səyahətdir.
- Su turizmi çaylarda, kanallarda, dənizlərdə teploxod, yaxta və gəmilərlə edilən səyahətdir.

Bütün bunlarla yanaşı, turizmin safari (ovçuluq və ya heyvanları müşahidə etmək), trofi (avtomobillə çətin keçilən ərazilərdə təşkil olunan tur), şop (bazarlıq), piyada velo və ya at (nəqliyyatdan istifadə etmədən) kimi növləri də var. Ümumiyyətlə, turizmin bütün növləri bir-biri ilə sıx əlaqəlidir və onların birini digərindən təcrid olunmuş halda təsəvvür etmək mümkün deyil.

Azərbaycanın tarixi və mədəniyyəti qədər onun turizm və səyahətlər tarixi də qədim və zəngindir. Tədqiqatçılar bu tarixi bir neçə mərhələyə bölürlər [5, s.142].

**I mərhələ. Qədim dövrlərdən XIX əsrin əvvəlinə qədər olan dövr.** Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək yolunun üzərində mühüm dayanacaq kimi tanınan bir ölkədir. İpək yolu üzərində yerləşən şəhərlər qədim zamanların beynəlxalq statusuna malik idilər. Əcnəbi tacirləri və karvanları qəbul edən və xidmət göstərən belə şəhərlər müvafiq infrastrukturlara malik olmalı idilər. Bu mənada Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Şəki Azərbaycanın əsas iqtisadi və həm də mədəni mərkəzləri idi.

**II mərhələ. Azərbaycanın çar Rusiyasının tərkibində olduğu dövr.** Rusiya imperiyası tərkibinə daxil olduqdan sonra Azərbaycanda turizm-ekskursiya işinin inkişafı Rusiya ilə bağlı olmuşdur. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ərazisindən turizmin inkişafına elmi və həvəskarlar cəmiyyətləri (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti) diqqət yetirməyə başladılar. Azərbaycanda mütəşəkkil turizmin tarixini 1908-ci ilə aid etmək olar. Belə ki, həmin il Krım - Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Bakı bölməsi həm uzaq, həm yaxın ekskursiya səfərlərinin təşkili ilə məşğul olurdu.

**III mərhələ. Azərbaycanın SSRİ-nin tərkibində olduğu dövr.** 1917-ci ilin oktyabr çevrilişindən sonra mövcud olan bütün turizm klublarının fəaliyyəti dayandırıldı. 1922-ci ildən başlayaraq Rusiya Turizm Cəmiyyəti ölkədə turizm idarəçiliyinin mərkəzinə çevrildiyindən Bakıda da onun şöbəsi yaradıldı. 1922-ci ildə Bakıda ilk ekskursiya dərnək-ləri yaradıldı. Yay aylarında Mərdəkan, Şüvəlan, Buzovna, Türkan, Zığ, Artyom adası və Şıx zolağına istirahət məqsədli ekskursiyalar təşkil olunurdu.

İkinci dünya müharibəsi illərində bütün SSRİ-də olduğu kimi, respublikamızda da turizm-ekskursiya fəaliyyəti dayandırıldı. 1950-ci ilin sentyabr ayında Bakı turist bazası yaradıldı. Mingəçevirdə, Hacıkənddə, Zaqatalada, Şuşada və Göygöldə turist bazaları fəaliyyətə başladı. Bakı zəhmətkeşlərinin yay istirahətinin təşkili üçün 1962-ci ildən Nabranda Bakı turist bazasının filialı kimi 150 nəfərlik "Sputnik" turist çadır düşərgəsi yaradıldı. 1963-cü ildə Bakıda turist klubu, Nabranda "Xəzər" turist bazası, 1965-ci ildə Bakıda, iki ildən sonra Gəncədə, Sumqayıtda ekskursiya büroları yaradıldı.

Ulu öndər Heydər Əliyevin ölkəmizin rəhbəri seçiləndən sonra bu sahədə görülən işlərin miqyası daha da genişləndi. 1969-cu ildə Naftalanda və Bakının Mərdəkan qəsə-

10.61764/lasr.1.2023.167-178

bəsində ekskursiya büroları yaradıldı. 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turist bazalarının yeni əsaslı binaları, 1975-ci ildə Qəbələdə "Qafqaz" və Xaçmaz rayonunun Nabran bölgəsində "Dostluq" turist bazası, elə həmin il Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi. Xankəndidə və Mingəçevirdə ekskursiya büroları açıldı. Naxçıvanda 1978-ci ildə ilk turizm təşkilatı yaradıldı. 1973-cü ildə Bakıda Azərbaycan Respublikasında ən böyük mehmanxana kompleksi olan 1942 yerli "Azərbaycan" mehmanxanası istifadəyə verildi. 1978-ci ildə "İnturist" Səhmdar Cəmiyyətinin tabeliyinə 200 yerlik komfortlu "Moskva" mehmanxanası da əlavə edildi. O illərdə komsomolun mərkəzi komitəsi xətti ilə uşaq, yeniyetmə və gənclər geniş ekskursiya-turizm hərəkatına cəlb edildi.

1983-cü il Azərbaycanda turizmlə bağlı ən yaddaqalan dövr olmuşdur. Həmin il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyən Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə Xəzərin Azərbaycan sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması barədə müvafiq qərar qəbul edildi. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədər turizmin inkişaf sxemi təsdiq olundu.

1987-ci ildə isə Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə çatdı. Həmin il respublikamıza xarici ölkələrdən 50 min, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdi. O zaman respublikamıza turist axını gücləndiyindən Lənkəran və Mingəçevir şəhərlərində hərəsi 300, Şuşa şəhərində 200 yerlik yeni turist mehmanxanalarının tikintisinə, Bakı şəhərindəki Qarabağ turist mehmanxanasında isə yenidənqurma işlərinə başlanılmışdı.

1988-ci ildən Ermənistanın Azərbaycana hərbi təcavüzünün başlanması nəticəsində Azərbaycana turist axını xeyli azaldı. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların bir hissəsi respublikanın turist bazalarında yerləşdirildi. 1990-cı ildə Azərbaycanda fəaliyyət göstərən Ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Müharibə və qeyri-sabit vəziyyət turizm sistemində başqa problemlərin yaranmasına da səbəb oldu. Məsələn, həmkarlar ittifaqları sistemində mövcud olan 10 turist bazasının ikisi işğal olunmuş ərazilərdə qalmış, qalan yerlərə isə, yuxarıda qeyd olunduğu kimi, qaçqın və məcburi köçkünlər yerləşdirilmişdi.

**IV mərhələ. Azərbaycan dövlətinin müstəqilliyi dövrü.** Mənfur qonşularımızın yürütdüyü siyasət nəticəsində respublikamızın turizminə böyük ziyan dəyməsinə baxmayaraq, müstəqilliyimizin ilk illərindən başlayaraq Yevlaxda, Cəlilabadda, Ağcabədidə, Qaxda, Beyləqanda yeni səyahətlər və ekskursiyalar büroları açıldı.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu potensialı düzgün qiymətləndirərək kifayət qədər investisiya tələb edən turizmin tənəzzüldən çıxarılması və inkişafı üçün kompleks tədbirlər həyata keçirdi. Ulu öndərimizin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində uğurlu islahatların aparılmasına imkan yaratdı. 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi [10].

**Müstəqilliyimizin 20 ili: turizm və iqtisadiyyat bölməsi**

Müstəqilliyimizin ilk 10 ilində respublikamızda əsasən getmə turizmi vüsət almışdı. Xaricə gedənlərin sayı ölkəyə gələn turistlərin sayından qat-qat çox idi. Ulu öndər Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradılandan sonra bu istiqamətdə geniş işlərin görülməsinə başlandı. Nazirlik turizm sahəsində yaranmış vəziyyətdən çıxış yolu axtarmağa, respublikada turizmi beynəlxalq

standartlar səviyyəsinə yüksəltmək üçün ciddi səylə çalışmağa başladı. Qısa müddətdə beynəlxalq turizm təşkilatları ilə əlaqələr yaradıldı, respublikamız bir sıra mötəbər görüşlərdə, eləcə də dünyanın ən böyük turizm sərgilərində təmsil olundu, turizmin maddi bazasının möhkəmləndirilməsi məqsədilə müvafiq addımlar atıldı. 2001-ci ilin sentyabrında Azərbaycan Ümumdünya Turizm Təşkilatına üzv qəbul olundu. "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının uğurlu icrası ölkəmizdə turizmin inkişafına mühüm təkan verdi.

Ölkəmizdə turizmin inkişafı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu strateji siyasi kursu yeni dövrün tələblərinə uyğun davam etdirən və yeni çalarlarla zənginləşdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Dövlətimizin başçısı Azərbaycanda bu sahənin inkişafını regionların tarazlı və davamlı sosial-iqtisadi tərəqqisi, yeni iş yerlərinin açılması, infrastrukturun yenilənməsi, bölgələrin investisiya cəlbediciliyinin artırılması baxımından son dərəcə vacib sayır. Prezident İlham Əliyevin imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında turizmin inkişafına xidmət edən kompleks tədbirlərin nəzərdə tutulması da məhz bu zərurətdən irəli gəlir. Proqramlarda respublikamızın bölgələrinin turizm potensialı düzgün qiymətləndirilmiş, bu sahədə həyata keçiriləcək tədbirlər konkret şəkildə əksini tapmış, yeni turizm obyektlərinin inşası üçün hökumətin maliyyə imkanlarından geniş istifadə edilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, proqramlarda infrastruktur məsələlərinə, yolların bərpasına və çəkilişinə xüsusi diqqət ayrılması respublikamızda turizmin inkişafına ciddi təkan verir [10].

Prezident İlham Əliyev turizmi milli mədəniyyətin tərkib hissəsi kimi dəyərləndirərək bu sahədə həyata keçirilən dövlət siyasətini təkmilləşdirmək məqsədilə 30 yanvar 2006-cı il tarixdə yeni dövlət qurumunun - Mədəniyyət və Turizm Nazirliyinin yaradılması barədə fərman imzalamışdır. Eyni zamanda, dövlət başçısının fərmanı ilə mehmanxana və mehmanxana tipli obyektlərə lisenziya verilməsi yeni yaradılmış bu nazirliyə həvalə olunmuşdur.

Ölkəmizdə turizmin daha sürətli inkişaf etdirilməsi məqsədilə bu istiqamətdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti, atılan addımlar dünyanın dörd bir yanından Azərbaycana ötən illərlə müqayisədə daha böyük turist axınını şərtləndirir. Bu mənada Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söylədiyi proqram xarakterli çıxışında Prezident İlham Əliyevin 2011-ci ili ölkəmizdə "Turizm ili" elan etməsi də tamamilə təbii xarakter daşıyır.

2011-ci ilin "Turizm ili" elan olunması bu sahənin inkişafına, ölkənin turizm sənayesinin potensialının gücləndirilməsinə yeni perspektivlər açır. Prezident İlham Əliyev bu barədə deyib: "Elə etməliyik ki, 2011-ci ildə turizmin inkişafına böyük təkan verilsin. Hesab edirəm ki, bu məqsədlə 2011-ci ilin "Turizm ili" elan olunması ədalətlidir. Elə etməliyik ki, bu sahədə böyük və gözəl nəticələr görək. 2011-ci il başlayıb, mən gələcəyə çox böyük nikbinliklə baxıram. Tam əminəm ki, 2011-ci il də ölkəmizin hərtərəfli inkişafı üçün uğurlu il olacaq"[11].

Prezident İlham Əliyevin 20 iyul 2011-ci il tarixli sərəncamı ilə 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında ölkəmizdə turizmin inkişafı ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər konkretləşdirilib. Bu tədbirlərin həyata keçirilməsi ölkəmizdə turizmin inkişafında mühüm nəticələrin əldə olunmasına böyük töhfələr verəcək.

10.61764/lasr.1.2023.167-178

**Potensiallar və perspektivlər**

Dəyərli mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara və inkişaf perspektivlərinə malikdir. Bu, hər şeydən əvvəl, çox əlverişli coğrafi mövqedir. Belə ki, Azərbaycan iki dünya sivilizasiyasının qovuşuğunda, Transqafqaz nəqliyyat dəhlizinin ortasında yerləşir ki, bütün infrastrukturlar - Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və dəmir yolları burada cəmlənmişdir. Odur ki, turizmin inkişafı ölkəmizdə dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilməklə iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi nəzərdən keçirilir. Azərbaycanın Şərqlə Qərbi birləşdirən əlverişli coğrafi məkanda yerləşməsi, fərqli mədəniyyətləri və dünyagörüşlərini bir araya gətirən tolerant dövlət kimi tanınması, 800 kilometrdən artıq məsafədə dənizsahili zonaya, 11 iqlim qurşağından 9-na malik olması, habelə füsunkar təbiəti, qədim tarixi mədəniyyət abidələri, zəngin folklor nümunələri respublikamızın böyük turizm potensialından xəbər verir [6, s.15].

Dünyada mövcud olan iqlim qurşaqlarının böyük əksəriyyəti Azərbaycanda var. Azərbaycanın bir tərəfində subtropikdir, o biri tərəfində tamam başqa bir iqlim şəraitidir. Yəni, Lənkəranın iqlimi ilə Şəkinin, Zaqatalanın iqlimi ilə Naxçıvanın, Azərbaycanın Mərkəzi Aran hissəsi ilə dağlıq hissəsinin iqlimi və təbiəti bir-birindən fərqlənir. Azərbaycanın bir tərəfində meşə zolaqlarıdırsa, o birisi tərəfində düzənliklərdirsə, onun öz gözəlliyi var, bunun öz gözəlliyi. Ölkəmizin landşaftı, təbii zənginliyi turizm üçün geniş meydan açır. O cümlədən, Azərbaycanın Bakıdan, Abşerondan başlamış Xaçmaza, Nabran ətraflarına qədər uzun bir ərazidə dəniz sahili var ki, bu da böyük bir potensialdır. Bu, həmçinin dənizsahili turizmin qurulması üçün çox böyük meydandır, perspektivlər vəd edir [6, s.26].

Eyni zamanda, bu ərazi, bu coğrafi məkan da çox böyük deyil. Bu əraziyə gələn bir turist qısa bir zaman - bir həftənin, on günün içərisində Azərbaycanın ən müxtəlif bölgələrini gəzmək, görmək imkanına malikdir. Digər tərəfdən, turizm üçün ən önəmli cəhətlərdən biri yalnız təbiətin gözəlliyi, havası, suyu deyil, onun baxmalı, görməli, tarixi-mədəni abidələridir. Bu nöqteyi-nəzərdən də Azərbaycanın hansı tərəfinə üz tutursansa, orada zəngin tarixi-mədəni irs mövcuddur. Naxçıvana gedəcəksən, orada orta əsrlərin yadigarı olan abidələri var, Qəbələyə gedəcəksən, erkən orta əsrlərdən, eradan əvvəl tutmuş XIX yüz ilə qədər ən müxtəlif dövrün tarixi-mədəni abidələrini görəcəksən. Şəkisi, Şirvanı, digər bölgələri də elə. Bu cəhətdən Azərbaycanın ərazisi mədəni-ədəbi-tarixi sərvətlər nöqteyi-nəzərindən də turizm üçün geniş meydan açır. Başqa bir amil də ondan ibarətdir ki, turizmlə əlaqədar infrastruktur yaranmalıdır ki, Azərbaycanda da bu istiqamətdə çox böyük işlər görülür. İndi Azərbaycanın ən müxtəlif guşələrində, bölgələrində beynəlxalq aeroportlar fəaliyyət göstərir, gözəl yollar, magistrallar salınır, mehmanxanalar, istirahət mərkəzləri yaradılır. Ötən il Azərbaycanın daxili turizm bazarında 15 faiz artım olub. Bunun səbəbi sözügedən istiqamətdə yol infrastrukturunun yenilənməsi, məsafənin az olması, həmin bölgələrdə əvvəlki illərə nisbətən turizm xidməti infrastrukturunun yaxşılaşması və genişlənməsi, eyni zamanda turizm obyektlərində göstərilən xidmətin müxtəlifliyi və çeşidliyidir. Odur ki, ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və s.) inkişafı üçün geniş imkanlar mövcuddur. Turizmin inkişafından və perspektivlərindən danışarkən bu sahədə yüksək səviyyəli xidmətin təşkili məsələsinə də toxunmalıyıq. Müasir turist rahatlıq və komfort, yüksək xidmət barədə daha çox düşünür. Ona görə turizm obyektinin sahibkarı daima öz üzərində çalışmalı, işçilərin peşə hazırlığı səviyyəsinin artırılmasına, savadlı, qonaqpərvər, xidmətin yüksək səviyyədə göstərilməsinə müvəffəq olmalıdır. Bu baxımdan Turizm İnstitutunun yaradılması son dərəcə təqdirəlayiqdir.

Məlumdur ki, son illər Azərbaycanın sürətli iqtisadi inkişafı miqrasiya proseslərinə də öz təsirini göstərmişdir. Miqrasiya axınlarının böyük bir hissəsi əmək miqrasiyası ilə, yəni biznes mühitinin inkişaf etməsi ilə bağlıdır. Eyni zamanda, son illər turizm miqrasiyası da artmağa başlamışdır. Bununla, eyni zamanda 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə əlaqədar olaraq Milli Məclisin bu il aprelin 8-də keçirilən iclasında ölkəmizə gələn turistlərə viza rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi məqsədi ilə "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib. Dəyişikliklərdən biri turist vizasının qanunvericiliyimizə daxil edilməsidir. Məlum olduğu kimi, bir çox ölkələrin qanunvericiliyində müxtəlif - turist, qonaq və əməkçi viza formaları var. Hələlik bizim qanunvericilikdə yenilik xüsusi bir növ kimi turist vizasının qəbul edilməsidir. Bu dəyişikliyə görə, turistlərə birdəfəlik giriş-çıxış üçün vizalar verilir. Digər dəyişikliyə görə, turizm şirkətləri turistlərə viza almaq üçün elektron qaydada müraciət edə bilərlər. Yəni vizalar həm poçt vasitəsilə, həm də elektron qaydada alına bilər. Bu, həm şəffaflıq, həm də vizanın sürətlə əldə olunması baxımından yenilikdir. Bütövlükdə turistlərə vizaların verilməsinin sadələşdirilməsi, eyni zamanda, turizm ilinin elan olunması ilə bağlı turist vizaları rejiminin yaradılması çox mütərəqqi haldır. Bütün bunlar Azərbaycanın turizm sahəsində əldə etdiyi növbəti uğurların siyahısına yazıla bilər. Əlbəttə, biz dünyaya inteqrasiya edirik. Bu addım Azərbaycan iqtisadiyyatında da özünün xüsusi yerini göstərəcək [2].

Azərbaycan Respublikasının turizm sənayesi üçün müasir beynəlxalq tələblərə cavab verən mütəxəssislərin hazırlanması; müxtəlif təhsil formalarını tətbiq etməklə yüksək mədəni və vətəndaş fəallığı ilə dərin peşə biliyini özündə birləşdirən yüksək ixtisaslı mütəxəssislər hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli 45 saylı Qərarına əsasən Azərbaycan Turizm İnstitutu yaradılmışdır. Azərbaycan Respublikasında turizm, menecment və digər xidmət sahələrində müşahidə olunan sürətli inkişafı, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını nəzərə alaraq 22 dekabr 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Turizm və Menecment Universiteti yaradılməşdır.

Azərbaycanda turizmin inkişafında vacib amillərdən sayılan qida sektoru formalaşmış, Milli Kulinariya Mərkəzi yaradılmışdır (1991). "Amburan", "Karvansara", "Bəh-bəh klub", "Mc Donald's", "Pizza-nat", "Patio-pizza", "Oyster Fish House", "Dolce Vita", "Dəniz" restoranları və b. həm yerli əhalinin, həm də turistlərin ixtiyarındadır. Respublikada fəaliyyət göstərən milli, Avropa, türk, hind və Çin mətbəxli restoranların əksəriyyəti Bakıda yerləşir. Bakıda dünyanın ən böyük mehmanxana şəbəkələrinə daxil olan beşulduzlu "Hyatt Regency" (1995), "Grand Hotel Europe" (1997), "Radisson SAS Plaza Hotel" (1998), "Park Hyatt Hotel" (1999), "Excelsior Hotel Baku" (2005) və b. fəaliyyət göstərir. 2011-ci il iyulun 2-də Bakıda beşulduzlu “Kempinski Badamdar” hotel kompleksinin açılışı olub. Yalnız dünyanın ən inkişaf etmiş ölkələrində rast gəlinən bu cür obyektlər iş adamları, turistlər və qonaqlar üçün maksimum xidmətlər təklif edir [4].

Azərbaycanın regionlarında da mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq, Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki Gabaland attraksionlar parkını, «Tufandağ» qış turizm kompleksini, Qusar rayonundakı möhtəşəm «Şahdağ» turizm mərkəzini göstərmək olar. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı”nın tələbləri çərçivəsində hesabat dövrü ərzində Quba, Şamaxı, Şəki, Lənkəran, Gəncə, Zaqatala, Xaçmaz və Naxçıvan turizm informasiya mərkəzləri fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2004-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası"na uyğun olaraq, Azərbaycan Respublikasında dövlət təsnifatından keçmiş mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 655-ə çatmışdır. Daxili turizmin inkişaf etdirilməsi istiqamətində Yanardağ və Nardaran qalası turist marşrutuna salınıb. «Qala» Dövlət Tarixi Etnoqrafik Muzeyi yaradılıb. "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun mədəni, tarixi və etnoqrafik məkan olaraq qorunması və turizm imkanlarının inkişaf etdirilməsi üçün "Xınalığın inkişaf proqramı" layihəsi işlənib hazırlanıb [8].

Turizm şirkətlərinin fəaliyyətinin inkişaf etdirilməsi, onların işində mövcud olan problemlərin aradan qaldırılması və turizm şirkətlərinin mənafeyinin qorunması, vahid şəkildə yerli və beynəlxalq tədbirlərdə iştirak etmək məqsədilə 2009-cu ildə Azərbaycan Turizm Şirkətləri Assosiasiyası yaradılmışdır. 250-dən artıq turizm şirkətinin fəaliyyət göstərdiyi Azərbaycanda da bu assosiasiyanın təsis edilməsi mühüm addım hesab olunur. 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. UNESCO-nun Dünya İrs Siyahısına Azərbaycandan İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmışdır (2000). "İçərişəhər" Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya, 27 ölkə əhəmiyyətli abidə maraqlı turizm obyektləridir. Əlverişli iqlim şəraiti (Lənkəran-Astara, Nabran-Yalama, Abşeron və b.), müalicəvi mineral sular, neft və palçıqlar (Lənkəran, Kəlbəcər, Naxçıvan, Naftalan, Abşeron və b.) sağlamlıq turizminin inkişafına geniş imkan yaradır. Respublikada dövlət təbiət qoruqlarının və milli parkların sayının artması təbiət, ekoloji və ekzotik turizm növlərinin inkişafını sürətləndirmişdir [6].

2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması turizm sahəsinin inkişafı üçün görülən çoxşaxəli işlərdəndir. 1 iyul 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü Sessiyasında Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Azərbaycan Hotel Assosiasiyası, Bələdçilər Assosiasiyası, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası və bu kimi ictimai birliklərin yaradılması turizm sənayesinin ümumi məqsəd ətrafında birləşdirilməsinə önəmli təkandır.

**Turizm mədəniyyətinin formalaşma yolları və kütləvi informasiya vasitələri**

Turizmin inkişafı ilə bağlı mühüm amillərdən biri də öz sərvətlərimizi, öz qabiliyyətimizi dünyaya gözəl şəkildə göstərmək və insanları buraya cəlb etməkdir. Süfrəmizdən, təbiətimizdən tutmuş tariximizə qədər Azərbaycanda turizmin inkişafı üçün çox böyük üfüqlər var və Azərbaycan gələcəkdə yalnız bölgədə deyil, dünyada ən aparıcı turizm ölkələrindən birinə çevrilə bilər. Zəruri normativ-hüquqi aktlar yaradılması, əlverişli infrastrukturun formalaşdırılması ilə yanaşı ölkəmizin turizm potensialının dünyaya tanıtdırılması istiqamətində də xeyli iş görülüb.

Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi bir sıra tədbirlər həyata keçirir. Respublikamızın turizm potensialını əks etdirən reklam xarakterli səhifə İngiltərənin "ABTA" soraq kitabçasında hər il yerləşdirilir. Avropada ölkəmizin turizm potensialını təbliğ etmək məqsədilə populyar "Travel İQ" və "Faints and Projects" jurnallarında Azərbaycanın görməli yerlərini əks etdirən məqalələr dərc edilib.

Azərbaycanın turizm potensialını dünyada tanıtmaq məqsədi ilə www.azerbaijan.tourism.az saytı işlənib hazırlanıb. Qeyd olunan saytın adı beynəlxalq

telekanallarda nümayiş olunan, Azərbaycanın turizm potensialını əks etdirən reklam çarxlarında, beynəlxalq turizm sərgilərinin rəsmi kataloqlarında, eləcə də digər rəsmi xarici mənbələrdə göstərilir və sayt mütəmadi olaraq yeniləşdirilir. Ölkəmizə səfər edən xarici ölkə vətəndaşları üçün Azərbaycanın turizm imkanları haqqında məlumatın artırılması məqsədilə "Austrian Airlines", "British Airways", "AZAL" aviaşirkətlərinə məxsus təyyarələrin bort jurnallarında reklam səhifələri, məlumatlar və ekranlarda reklam çarxları yerləşdirilib.

2006-cı ildən etibarən Azərbaycanın imic reklam çarxları hazırlanmağa başlanıb. Bu məqsədlə Rusiyanın NTV kanalının "Şan dizayn", yerli "MaxMedia", "Salnamə" şirkətləri tərəfindən çəkilişlər aparılıb. 2006-2010-cu illər ərzində CNN, "Euronews" "National Geographic", "Travel Channel", BBC və CNBC kimi xarici televiziya kanallarında respublikamızın turizm potensialını təbliğ edən reklam çarxları yerləşdirilib. Həmçinin "Rostropoviç", "Jazz" festivalları və "Bakı İslam Mədəniyyətinin Paytaxtı" ili ilə əlaqədar CNN və "Euronews" kanalında müvafiq reklam çarxları yer alıb [12].

Hər il "AİTF" Beynəlxalq turizm sərgisi Bakı şəhərində keçirilir. Bu sərgidə iştirak edən xarici ölkələrin coğrafiyası genişlənir və turizm şirkətlərinin sayı ildənilə artır. 2010-cu ildə ölkələrin sayı 32-yə, şirkətlərin sayı isə 120-yə çatıb. Rusiyada dərc olunan "Exo planetı" jurnalının əməkdaşları 2010-cu ildə jurnalda məqalələr üçün tələb olunan materialların toplanılması məqsədilə Bakıya gəliblər. "Exo planetı" jurnalında mütəmadi olaraq ayda 2 dəfə Azərbaycanın mədəni tədbirləri, mədəniyyəti, tarixi, tarixi abidələri və turizm haqqında məqalələr dərc olunub. Ötən il Avstriyanın "World Travel Guide" bələdçisində Azərbaycanın reklam səhifəsi yerləşdirilib. Digər belə çoxsaylı tədbirlər Mədəniyyət və Turizm Nazirliyinin ölkəmizdə turizmin inkişafı üçün reklam və təbliğatdan geniş istifadə etməsinin bariz göstəricisidir.

**Nəticə**

Nadir təbiət gözəlliklərinə, zəngin tarixi keçmişə, bunu əks etdirən maddi mədəniyyət abidələrinə, əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan bu gün dünyanın diqqətini həm də böyük turizm potensialına malik bir ölkə kimi cəlb edir. Xalqımızın tarixən qonaqpərvər xüsusiyyəti ilə seçilməsi, son illər ərzində turizm sahəsində uğurla həyata keçirilən dövlət siyasəti, reallaşdırılan müvafiq layihələr bu müstəvidə Azərbaycana marağın daha da yüksəlməsinə gətirib çıxarıb. Təbii ki, bütün bunlar ölkəmizin tezliklə dünyanın turizm mərkəzlərinin birinə çevrilməsinə öz töhfəsini verəcək.

2020-ci ilin payızında Azərbaycanın 20 faiz ərazisinin Ermənistan ordusunun işğalından azad edilməsindən sonra yeni yolların çəkilməsi, hava limanlarının istifadəyə verilməsi, “ağıllı” şəhər və kəndlərin salınması həmin regionda turizmin inkişafına xeyli dərəcədə təkan verəcəkdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. B.Ə.Bilalov, Ç,G,Gülalıyev, “Turizmin əsasları”, Dərs vəsaiti, Bakı, 2015.
2. Bahadur Bilalov, “Turizm fəaliyyətinin tənzimlənməsi”, Dərs vəsaiti. Bakı, 2006.
3. Əli Cabbarov, “Turizmin iqtisadi əsasları”, Dərs vəsaiti, Bakı, 2015.
4. Əli Cabbarov, “Turizm marşrutları və ekskursiya işinin təşkili”, Dərs vəsaiti, Bakı, 2017.
5. Əli Cabbarov, Turizm “Şərq qapısı” qəzetinin səhifələrində, Dərs vəsaiti.
6. H. Soltanova, “Azərbaycan Respublikasında turizm və onun inkişafı”.
7. Nizami Qafarov, “Turizmin iqtisadiyyatı”, Dərslik, Bakı, 2019.
8. M.M.Ağakərimov “Ekskursiya və ekskursiya rəhbəri”.
9. Ə.Əlimərdan, “Ekoloji turizm”.

10.61764/lasr.1.2023.167-178

10. Recreation in the XXI Century: Problems and Prospects, Dedicated to the 96th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev, 3-4, May 2019, Baku, Azerbaijan.
11. https://republic.preslib.az/az_c7-5.html
12. https://www.elibrary.az/docs/qazet/qzt2011_1900.pdf

**Аскер Алиев**
**Иашар Гасымови**

## МЕСТО ТУРИЗМА В СОВРЕМЕННОМ ГОСУДАРСТВЕННОМ СТРОИТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

В данной статье рассматривается место и значение туризма в современном государственном строительстве Азербайджана. Анализируется, как Азербайджан своими богатыми и разнообразными туристическими возможностями, государственными программами и международным сотрудничеством способствует социально-экономическому развитию страны. Также в статье говорится о проблемах, с которыми сталкивается страна в сфере туризма и мерах, которые необходимо предпринять для их устранения.

В Азербайджане реализуются государственные программы и международное сотрудничество для развития туристического сектора. При этом страна увеличивает вклад туризма в социально-экономическое развитие и ставит туризм в качестве стратегического направления в современном государственном устройстве. Также в статье говорится о проблемах, с которыми сталкивается страна в сфере туризма и мерах, которые необходимо предпринять для их устранения. В статье анализируется туристический потенциал Азербайджана и роль туризма в современном государственном строительстве и предлагаются предложения в этой области.

***Цель:*** Ознакомить с туристическим потенциалом Азербайджана и вкладом туризма в социально-экономическое развитие страны, проанализировать виды туризма и их особенности, преимущества и трудности, обобщить достижения и недостатки туристического сектора и как лучше интегрировать и развивать туризм в современную государственную структуру.

***Методология:*** В данной статье используется метод описательного анализа, который является одним из методов качественного исследования. Метод описательного анализа - это метод, целью которого является описание и интерпретация темы или события такими, какие они есть. Кроме того, методом описательного анализа исследовано место и значение туризма в современном государственном устройстве Азербайджана.

***Результат исследования:*** В статье представлены туристический потенциал Азербайджана, виды туризма, достижения и недостатки в сфере туризма, роль туризма в современном государственном устройстве, а также предложения, связанные с развитием туризма.

В статьи были получены следующие результаты:

• Азербайджан обладает большим потенциалом в сфере туризма благодаря многим факторам, таким как нетронутая природа, ресурсы минеральных вод, нафталин, редкие древние архитектурные памятники, уникальная культура и национальная кухня.

• Азербайджан предлагает благоприятные условия для развития всех видов туризма – делового, спортивного, лечебного, знакомства, охотничьего, экзотического, пляжного и гастрономического туризма.

• Государственные программы и международное сотрудничество реализуются для развития туристического сектора в Азербайджане. При этом страна увеличивает вклад туризма в социально-экономическое развитие и ставит туризм в качестве стратегического направления в современном государственном устройстве.

• Хотя Азербайджан успешен в сфере туризма, он также сталкивается с определен-

ными трудностями. К ним относятся отсутствие инфраструктуры, нехватка квалифицированных человеческих ресурсов, неадекватность рекламной деятельности, низкая конкурентоспособность и экологические проблемы.

• Для дальнейшего развития туристического сектора Азербайджана могут быть выдвинуты следующие предложения: увеличение инвестиций в инфраструктуру, улучшение туристического образования, диверсификация и активизация рекламной деятельности, предоставление инновационных и качественных услуг для повышения конкурентоспособности, работа в соответствии с принципом экологической устойчивости.

***Ключевые слова:*** *Азербайджан, туризм, современное государственное строительство, описательный анализ, предложения*

**Asgar Aliyev**
**Gasimovi Iashar**

**THE PLACE OF TOURISM IN THE MODERN STATE-BUILDING OF AZERBAIJAN**

***ABSTRACT***

This article examines the place and importance of tourism in the modern state building of Azerbaijan. It is analyzed how Azerbaijan contributes to the socio-economic development of the country with its rich and diverse tourism opportunities, state programs and international cooperation. The article also talks about the problems faced by the country in the field of tourism and the measures to be taken to eliminate them.

Azerbaijan implements state programs and international cooperation for the development of the tourism sector. With this, the country increases the contribution of tourism to socio-economic development and places tourism as a strategic field in the modern state structure. The article also talks about the problems faced by the country in the field of tourism and the measures to be taken to eliminate them. The article analyzes the tourism potential of Azerbaijan and the role of tourism in modern state building and offers suggestions in this field.

***Purpose:*** To introduce the tourism potential of Azerbaijan and the contributions of tourism to the socio-economic development of the country, to analyze the types of tourism and their characteristics, advantages and difficulties, to summarize the achievements and shortcomings of the tourism sector and how to better integrate and develop tourism into the modern state structure. make suggestions.

***Methodology:*** This article uses the descriptive analysis method, which is one of the qualitative research methods. A descriptive analysis method is a method that aims to describe and interpret a topic or event as it is. In addition, the descriptive analysis method was used to investigate the place and importance of tourism in the modern state structure of Azerbaijan.

***The result of the research:*** The article presents the tourism potential of Azerbaijan, types of tourism, achievements and shortcomings in the tourism sector, the role of tourism in the modern state structure, and proposals related to the development of tourism.

As a result of the article, the following results were obtained:

• Azerbaijan has great potential in the tourism sector with many factors such as untouched nature, mineral water resources, naphthalene, rare ancient architectural monuments, unique culture and national cuisine.

• Azerbaijan offers favorable conditions for the development of all types of tourism - business, sports, medical, dating, hunting, exotic, beach and gastronomic tourism.

• State programs and international cooperation are implemented for the development of the tourism sector in Azerbaijan. With this, the country increases the contribution of tourism to socio-economic development and places tourism as a strategic field in the modern state structure.

• Although Azerbaijan is successful in the tourism sector, it also faces certain difficulties. These include lack of infrastructure, lack of qualified human resources, inadequacy of promotional

activities, low competitiveness and environmental problems.

• The following proposals can be put forward for the further development of Azerbaijan's tourism sector: increasing infrastructure investments, improving tourism education, diversifying and activating promotional activities, providing innovative and quality services to increase competitiveness, operating in accordance with the principle of environmental sustainability.

***Keywords:*** *Azerbaijan, tourism, modern state building, descriptive analysis, suggestions*